UOT 821.512.162+091

**Tahirə Həsənzadə**
*tarix elmləri doktoru,*
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç.,26*

# GÖRKƏMLİ MAARİFÇİ XALİSƏQARIZADƏ ƏBDÜLQƏNİ ƏFƏNDİNİN PEDAQOJİ FƏALİYYƏTİ

**Açar sözlər:** *Xalisəqarızadə, pedaqoq, kitabşünas, məktəblər, dərslik.*

XIX əsr Azərbaycan elm və pedaqoji fikir tarixində M.F.Axundov Mirzə Kazım bəy, S.Ə Şirvani, M.Ş.Vazeh və digər mütəfəkkirlərin böyük xidmətləri olmuşdur. Bu dövrdə elm və ədəbiyyat yeni inkişaf mərhələsində idi. Lakin bu dövrün böyük çətinlikləri də olmuşdur.Pedaqoji kadrların çatışmaması və dərs vəsaitinin azlığı məktəblərin bağlanmasına səbəb olurdu. Belə bir mürəkkəb dövrdə yaşamış XIX yüzillikdə dövrünün tanınmış alimi, pedaqoqu və kitabşünası Şəmsəddin Əbdülqəni Nuxəvi Məhəmməd əfəndi oğlu Xalisəqarızadənin yazdığı tərtib və tətbiq etdiyi dərslikləri Azərbaycanın pedaqoji fikir tarixinin yeni mərhələsini təşkil edir və bu tarixi prosesi öyrənməkdə xüsusi əhəmiyyət kəsb edir.

Mütəxəssislərin fikrincə Azərbaycan pedaqoji fikir tarixinin kökləri keçmiş yüzilliklərin dərin qatları ilə bağlıdır. Mütəşəkkil məktəb təhsili tarixinin başlanğıcı isə islam tarixi ilə əlaqələndirilir. Elm və dinin əlaqəsi məsələsi özlüyündə yeni məsələ deyildir, onun kökləri orta əsrlərə gedib çıxır (4, 200). Qurani-Kərim "bilənləri bilməyənlərdən" üstün tutmaqla müsəlmanları elmə, biliklərə yiyələnməyə həvəsləndirirdi. Peyğəmbərin (ə.s) kəlamlarından biri də budur:

"Allah-təalanın ilk xəlq etdiyi şey əqldir. Çində də olsa, elmi axtarın." (4, II)

İslamdan əvvəl isə atəşkədədə yerləşən zərduşti məktəbləri fəaliyyət göstərmişdir (1, 95), sonralar Azərbaycanın şimal hissəsində, Albaniyada xristian məktəbləri yaranmışdır. Azərbaycanlı mədrəsə müdərrisləri Şərq ölkələrində: Bağdadda, Dəməşqdə təhsil almış ziyalılar idilər. Əbül Üla Gəncəvi, Fələki Şirvani, Xaqani Şirvani, Nizami Gəncəvi, Məhsəti Gəncəvi mütəfəkkir ədib və müdərrislər olmuşlar. Azərbaycan alimi Nəsirəddin Tusinin başçılıq etdiyi Marağa elm ocağı, onun pedaqoji fikirlərini əks etdirən "Əxlaqi-nasiri", "Ədəbül-mütəallimin" əsərləri Azərbaycan pedaqoji fikir tarixinin qaynaqlarıdır. Mətnşünas alim Kamandar Şərifov Azərbaycan alimi Nəsirəddin Tusini dünya elminin böyük dühası kimi dəyərləndirir.

Xalqın şairi Molla Pənah Vaqif zəkalı müəllim idi və el arasında "Hər oxuyan Molla Pənah olmaz" məsəli ona ünvanlanmışdır. "Molla" titulu o zamanlar yüksək səviyyəli pedaqoji fəaliyyət ilə əlaqədar verilirdi.

Xalisəqarızadə 1817-ci ildə Şəki şəhərinin Qışlaq məhəlləsində anadan olmuşdur. Onun tədqiqatçısı görkəmli mətnşünas alim f.e.d., prof. Kamandar Şərifli göstərir ki, onun tam adı Şəmsəddin Əbdülqəni Nuxəvi Kamaləddin Məhəmməd əfəndi oğlu Xalisəqarızadədir. Əsərlərinin sonunda isə öz adını sadəcə Əbdülqəni Nuxəvi kimi yazmışdır. "Bu nəslin soyadı, alimin ulu babası Şeyx Məhəmmədin həyat yoldaşı Xalisə qarının adı ilə bağlıdır. Xalisə qarı yaxşı təhsil almış, şair təbiətli xanım olmuşdur. Elə Əbdülqəni Nuxəvinin hal-hazırda Əlyazmalar İnstitutuna gətirilmiş zəngin əlyazma və qədim çap kitablarından ibarət kitabxanasının əsasını da ziyalı qadın Xalisə qarı qoymuşdur. K.Şərifli yazır ki, bu nəslin nümayəndələri həm tariximiz, həm də ədəbiyyatımız olan "Qorqudun kitabı"nın qədim nüsxəsinin bu əlyazmalar arasında olduğu barədə məlumat vermişlər (6,17). Kamandar Şərifli bu

nəslin şəcərəsini diqqətlə, dərindən araşdırmış, sənədlər əsasında Xalisə qarının XVIII əsrdə yaşadığını müəyyənləşdirmişdir. Əsas mənbə Əbdülqəninin öz əlyazmaları olmuşdur.

Mətnşünas alim V.Şərifovun araşdırmalarına əsasən Əbdülqəninin atası Kəmaləddin Məhəmməd əfəndinin Şərq dilləri üzrə mükəmməl təhsil almış, klassik irsə yaxşı bələd fazil şəxs olduğunu öyrənirik. O, övladlarına ilk təhsili də özü vermiş, kiçik oğlu Əbdülqəninin xüsusi qabiliyyəti olduğunu görüb, onunla xüsusi məşğul olmuş, ona Şərq dillərini öyrətmişdir. Sonralar təhsilini milli məktəb və mədrəsələrdə davam etdirən Əbdülqəni o dövrün tanınmış müdərrisi Abdulla əfəndi Axundzadənin tələbəsi olmuş, ondan həm klassik şairləri dərindən öyrənmiş, həmdə xəttatlıq sənətini mənimsəmişdir. Abdulla əfəndi Axundzadənin və Əlican bəy Nuxəvinin dövrünün sayılıb-seçilən, Şəkidə fəaliyyət göstərən mədrəsələri hərtərəfli bilik verən maarif ocaqları idi. Heç də təsadüfi deyil ki, Əbdülqəni əfəndi pedaqoji fəaliyyətə Əlican bəy Nuxəvinin xüsusi mədrəsəsində başlamış, tanınmış mədrəsəni özünün elmi-pedaqoji fəaliyyəti sayəsində dərin bilik və elm ocağına çevirmişdi. Halbuki həmin dövrdə bir çox mədrəsələr bağlanırdı. 35 il pedaqoji fəaliyyətlə məşğul olmuş Əbdülqəni Nuxəvi dərs dediyi mədrəsələrdə özünün xüsusi təlim üsullarını tətbiq etmiş, bunun üçün bir sıra dərs vəsaitləri hazırlamışdır. (3,6) bunlar əlyazma topluları və kitabları şəklində olmuş, hazırda bir hissəsi Əlyazmalar İnstitutunda saxlanır. Onun tərtib etdiyi dərs vəsaitlərini nəzərdən keçirsək, dərs dediyi mədrəsədə dilçilik, ədəbiyyatşünüslıq, tarix, fəlsəfə, məntiq, riyaziyyat, həndəsə, astronomiya və s. kimi dünyəvi elmlər tədris olunduğunun və hərtərəfli bilik qazanan tələbələr hazırlandığının şahidi olarıq.

Əbdülqəni Nuxəvi uzun illər tədqiq etdiyi bədii və elmi əsərləri dərindən öyrənmiş, onlara şərhlər yazmış, bu elmi işlərindən tədris zamanı, təlim-tərbiyə işində geniş istifadə etmişdir. Ona görə də alim tədqiq etdiyi əsərin tədris üçün əhəmiyyətini əvvəlcədən müəyyənləşdirərək onun üzərində işləyirdi. O, tələbələrinin hərtərəfli geniş biliyə malik olması üçün onlara bütün elm sahələri barədə məlumat verən dərsliklər tərtib və tədris edirdi. Məsələn, o, məşhur elmi ensiklopediya olan Katib Çələbinin "Kəşf əz-zünun an əsamil-kutub-vəl fünun" əsərinin müqəddiməsini və müxtəlif elmlərə aid olan hissələrini köçürüb, tədris proqramına daxil etmişdi. Burada həm bütün elmlərin tərifini yazmış, həm də məşhur alim və ədiblərin əsərləri barədə mətnin haşiyələrində məlumat vermişdir. alimlər haqqında məlumatların bəzisini "Kəşf əz-zunun"dan, bəzisini isə digər mənbələrdən götürmüşdür. Bir sözlə, tərtib etdiyi bu tədris vəsaiti, həm də məlumat kitabı kimi faydalı olmuşdur, Ümumiyyətlə alimin böyük zəhmətlə başa gələn əməyi dərsliklərində öz əksini tapmışdır.

Əbdülqəni Nüxəvi tərtib etdiyi, yazdığı dərs vəsaitləri ilə bərabər, müasiri olduğu qabaqcıl maarifçilərlə görüşüb tədris ocaqlarının problemlərini müzakirə edirdi, onların tərtib etdikləri dərs vəsaitlərindən də istifadə edir, onlara münasibət bildirirdi. A.Bakıxanovun 1831-ci ildə çap etdirdiyi fars dilinin qanun və qaydalarından bəhs edən "Qanuni-Qüdsi" dərsliyinin üzünü köçürərək dərs vəsaiti kimi tətbiq edən gənc müdərris Əbdülqəni müəllifinə əsər barədə öz tənqidi mülahizələrini də bildirmişdi. (3,17)

Mənbələrdən belə məlum olur ki, Əbdülqəni Nuxəvi təhsilini Türkiyədə də davam etdirmişdir.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, dərs vəsaitlərindən olan "Farsi təkəllüm risaləsi"nin dili Osmanlı türkcəsinə çox yaxındır. Bu əsər Əbdülqəni əfəndi Xalisəqarızadənin tərtib etdiyi çoxsaylı dərsliklərindən biridir və alimin pedaqoji fikirlərini, mütərəqqi tədris metodlarını öyrənmək üçün dəyərli mənbədir. Əsərdə özünün yeni pedaqoji üsullarını təklif edən alim eyni zamanda Şərq dillərinin, o cümlədən fars dilinin o dövrdəki tədris metodikasını tənqid etmiş, onun qüsurlarını göstərmişdir. Başlıca qüsuru şagirdin həmin dildə danışıq qabiliyyəti primitiv olduğu halda, ona Hafizi, Sədini oxutduran müdərrislərin təlim üsullarında görən Əbdülqəni şağirdə əvvəlcə, məsələn, on sözün lüğətini öyrətməyi, mükalimə üsulunu təklif edir, bundan sonra fars dilini mənimsəmiş şagirdə ərəb tərkibi olmayan sadə mətnləri oxumağı tövsiyə edirdi.

Şifahi danışıq dilinə üstünlük verən pedaqoq "Farsi təkəllüm risaləsi"ndə bu barədə faydalı fikirlərini bildirmişdir. Əsər şagirdə Azərbaycan tarixinin bir sıra səhifələrini reallıqla təqdim etdiyinə görə də qiymətlidir.

Nümunələr:

"Sual: Azərbaycan məmləkətinin nə qədər şəhərləri vardır?

Cavab: Əvvəllər Azərbaycanın çox məmləkətləri var idi. İndi əksər şəhərləri Rusiya dövləti hökumətinə keçdi. İndi İranın əlinə keçmiş məşhur şəhərləri bunlardır: Təbriz, Ərdəbil, Marağa, Səlmas, Xoy, Urmiya.

Bu məmləkət barədə Katib Çələbi "Cahannüma" əsərində geniş məlumat vermişdir. (3,62)

Azərbaycan kimi, İranın hər yerində türkini bilirlər. (3,69)

Şahlar tərəfindən yazılan kağıza rəqəm deyirlər. hakimlər və əmirlərin yazdıqları kağız təliqə adlanır.(3,71-72)". Göründüyü kimi bu məlumatlarla arxeoqrafik sənədlər barədə şağirdi məlumatlandırmış olur. Kitabda tarixə aid bir çox əsərlər, o cümlədən "Aləmarayi-Abbası" və "Dürreyi-Nadiri"ni də şagirdə oxumağı məsləhət bilir.

XIX əsr maddi çətinliklər və pedaqoji kadrların çatışmaması səbəbindən bir sıra məktəblərin bağlanması ilə də üzləşmişdir. Buna baxmayaraq Əbdülqəni Nuxəvi kimi ziyalılar səy göstərir, dərs vəsaitləri tərtib edir, şəxsi kitabxanalarının qapılarını xalqın üzünə geniş açırdılar. Əbdülqəni Əfəndi Nuxəvi ona irs qalmış kitabxanasını öz vəsaiti hesabına zənginləşdirirdi, onun bu kitablarının ağ vərəqlərində yazdığı qeydlərdən məlum olur ki, onların coğrafiyası İstanbul, İskəndəriyyə, Qahirə, Məkkə, Mədinə və s. şəhərləri əhatə edir. Firidun bəy Köçərli Əbdülqəni Nuxəvini XIX əsrdə Azərbaycan xalqının "ürəyi atəşli müəllimlərindən" adlandırmışdır (5).

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Elmi fondlarında Əbdülqəni Əfəndinin zəngin əlyazma, çap kitabı kolleksiyasını heç də bütünlüklə əhatə etməyən zəngin nümunələri mühafizə olunur. Ərəb, fars və türk dillərində, sayı 200-dən artıq olan daşbasma kitabları sırasında V-411 şifrəli əski çap kitab diqqəti çəkir. Bu, Qafqazın 3-cü Şeyxülislamı Axund Əhməd Hüseynzadənin "Müəllimül-ətfal" əsərinin 1879-cu il Tiflis nəşridir. Əsərin əlyazma nüsxəsi isə 1874-cü il tarixlidir. Çox güman ki, Əbdülqəni əfəndi əsərin əlyazma nüsxəsi ilə də tanış olmuşdur. "Müəllimül-ətfal" səs üsulu (sövti) ilə yazılmış əlifba dərsliyidir, 1874-cü ildə qələmə alınmış bu əsər Azərbaycan məktəbləri üçün yazılmış ilk dərslikdir. Yəqubi Əsəd Rza bu faktı nəzərdən qaçırdığı üçün tanınmış pedaqoq, Azərbaycan pedaqoqika tarixinin tədqiqatçısı Hüseyn Əhmədovu tənqid etmişdir.(2)Məlum olduğu kimi Q.Çernyayevski "Vətən dili" sövti üsul ilə (səs üsulu ilə) kitabını da 1883-cü ildə Tiflisdə nəşr etdirmişdir.

Əhməd Hüseynzadə "Müəllimül-ətfal"ın son səhifəsində Tiflisdə əyləşən Baş konsul Mirzə Mahmud xan Təbriziyə kitabın nəşrində göstərdiyi yardıma görə təşəkkürünü bildirmiş, diplomatın vətən və millətin xeyirxahı, himayədarı olduğunu diqqətə çatdırmışdır. Qeyd etmək lazımdır ki, Mirzə Mahmud xan Təbrizi Qacarlar dövlətinin təmsilçisi kimi bir sıra xarici dövlətlərdə diplomatik missiyasını yerinə yetirmiş, o cümlədən 1877-1883-cü illərdə Tiflisdə Baş konsul kimi fəaliyyət göstərmişdir. Onun haqqında "Bir nəslin üç diplomatı" adlı məqalədə geniş bəhs olunur.

Böyük ruhani Əhməd Hüseynzadə (o, 1862-1884-cü illərdə Qafqazın 3-cü Şeyxül-islamı vəzifəsində olmuşdur və ictimai-siyasi xadim, yazıçı-publisist və naşir Əlibəy Hüseynzadənin babasıdır). dövrünün aydın fikirli din xadimi idi. Tarixə dair əlyazmalarda Azərbaycan tarixi məsələləri ilə maraqlanarkən belə bir faktla rastlaşdım ki, Qarabağ hakimi İbrahimxəlil xanın qızı Gövhərnisənin xahişi ilə Qafqaz Şeyxülislamı Axund Əhməd Hüseynzadə tərəfindən tərtib edilmiş "Vəqfnamə"də Qarabağda olan iki məscid, mədrəsə və mülklər Gövhərağa tərəfindən vəqf olunmuşdur.

Əbdülqəni Nuxəvi Xalisəqarızadə zəngin pedaqoji fəaliyyətlə məşğul olmaqla bərabər, həm də ictimai xadim idi. Sağlığında alimlərin və fazillərin ən məşhuru kimi yüksək qiymətləndirilən (3) Xalisəqarızadənin qazandığı nüfuzunu nəzərə alaraq, onu Nuxa şəhəri Böyük Cümə məscidinin imamı və şəhərin baş qazısı,həm də Nuxa şəriət məhkəməsinin sədri təyin etmişdilər. Böyük ictimai xadimin Nuxa şəriət məhkəməsinin sədri vəzifəsində fəaliyyəti barədə rəsmi tarixi sənədlər AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Arxeoqrafik sənədlər xəzinəsində qorunub saxlanır. Bu sənədlər imam Əbdülqəni əfəndinin şəriət qanunlarının keşiyində ədalətlə dayandığını sübut edir.

XIX əsrdə xalqının elmlə silahlanmasında bütün bilik və bacarığını sərf etmiş Əbdülqəni Nuxəvi Xalisəqarızadə 200 il bundan əvvəl, 1817-ci ildə dünyaya gəlmiş, ömrünün 62-ci ilində (1879) xalqına zəngin irs qoyaraq dünyasını dəyişmişdir.

XX əsrin əvvəllərində "Ata-baba nəsihətləri" kitabını qələmə almış yazıçı və siyasi xadim Cəlal Yusifzadə aşağıdakı misralarda yəqin ki, Əbdülqəni Nuxəvi Xalisəqarızadənin nəsihətlərini yad etmişdir:

Məktəbdir edən rəvanı rövşən,
Bu nöqtədə heç bir xəfa yox.
Məktəbdir edən cahanı gülşən,
Məktəb kibi səhneyi-səfa yox.

Tədqiqatçı K.Şərifov haqlı olaraq qeyd edir ki, Əbdülqəni Xalisəqarızadə XIX əsr Azərbaycan mədəniyyətinin yeni yüksəliş dövründə ciddi elmi-pedaqoji fəaliyyət göstərmiş mütərəqqi Azərbaycan alim və pedaqoqlarından biri olmuşdur. Onun pedaqoji fəaliyyəti tədqiqat obyekti olmalı, dərindən araşdırılmalıdır (5).

**Ədəbiyyat:**

1. Əhmədov H. Azərbaycan məktəbi və pedaqoji fikir tarixi. Bakı: ABU nəşri, 2001, 320 s.
2. Əsəd Rza Yəqubi-Azərbaycanda təlim-tərbiyə mədəniyyəti və pedaqoji fikir tarixi. Bakı;"Nurlan", 2005, 628 s.
3. Xalisəqarızadə Əbdülqəni əfəndi. Farsi təkəllüm risaləsi. Bakı: "Elm və təhsil, 2014, 98 s.
4. Paşazadə Allahşükür. Qafqazda islam. Bakı:Azərnəşr , 1991, 224s.
5. Şərifli Kamandar. Alim, pedaqoq və kitabşünas. Bakı: Nurlan, " 2007s.79.
6. Şərifov Kamandar. Əbdülqəni Nuxəvi Xalisəqarızadə. Bakı: "Nurlan", 2002, 160s.

***Тахира Гасанзаде***

## ПЕДАГОГИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ ВЫДАЮЩЕГОСЯ ПРОСВЕТИТЕЛЯ ХАЛИСАГАРИЗАДЕ АБДУЛЬГАНИ ЭФЕНДИ

**Резюме**

Абдульгани Нухеви Халисагаризаде - выдающийся просветитель, педагог, текстолог, ученый в сфере изучения рукописей II половины XIX века. В статье даются сведения о богатейшей коллекции ученого, хранящейся в научных фондах Института Рукописей имени Мухаммеда Физули НАНА, содержащей ценные образцы рукописных, старопечатных и камнеписных книг, а также оставленные нам в наследие материалы, освещающие богатую педагогическую и общественную деятельность Халисагаризаде.

**Ключевые слова:** *Халисагарызаде, педагог, книговед, школы, учебник.*

***Tahira Hasanzadeh***

**THE PEDAGOGİCAL ACTİVİTİES OF KHALİSAGARIZADEH ABDULGANİ AFANDİ, A WELL-KNOWN ENLİGHTENER**

**Summary**

The outstanding educator Abdulgani Nukhevi Halisagarizade was a teacher, textologist, and scientist in the study of manuscripts of the second half of the XIX century. The article provides information about the scientist's richest collection stored in the scientific funds of the Institute of Manuscripts named after Mohammed Fizuli of ANAS, containing valuable samples of anuscript, early printed and stone books, as well as materials left to us as a legacy covering the rich pedagogical and social life of Halisagarizade.

**Key words*:*** *Khalisagarizadeh, pedagogue, bibliogist, schools, textbook*

Redaksiyaya daxil olma tarixi: 02.06.2019 .
Çapa qəbul olunma tarixi: 27.07.2019.

Filologiya elmləri doktoru **Paşa Kərimov**
tərəfindən çapa tövsiyə olunmuşdur.